# Avropa dövlətləri ilə əlaqələrin genişləndirilməsi xarici siyasətin prioritetlərindəndir



***2018-ci ildə Avropa İttifaqı (Aİ) ilə Azərbaycan tərəfdaşlığın birgə prioritetlərini təsdiqləmişlər. Bu, Şərq Tərəfdaşlığının dörd prioritet istiqaməti ilə yanaşı, siyasi dialoqumuzu və əməkdaşlığımızı da müəyyənləşdirmişdir. Xüsusilə qeyd etmək vacibdir ki, Aİ Azərbaycan üçün bir nömrəli ticarət tərəfdaşı olaraq qalır. Bu, bir faktdır ki, Aİ Azərbaycanın iqtisadi modernləşdirilməsinə öz töhfəsini verir, bu əməkdaşlıq xüsusilə də təhsil, sahibkarlıq və regional inkişaf kimi sahələri də əhatə edir. Aİ, həmçinin ölkəmizdə investisiya və biznes mühitinin daha da təkmilləşməsi prosesinə öz dəstəyini göstərir.***

Bundan başqa, Azərbaycana enerji siyasətinin həyata keçirilməsində və ölkənin enerji səmərəliliyinin artırılmasında da kömək edir. Ətraf mühitin qorunması sahəsində də əməkdaşlıq gücləndirilmişdir. 2004-cü ildə Azərbaycan Avropa Qonşuluq Siyasətinə, 2009-cu ildə isə onun Şərq istiqaməti üzrə çoxtərəfli əməkdaşlıq formatı olan Şərq Tərəfdaşlığı proqramına daxil edilmişdir. Cənubi Qafqazda bir sıra xarici qüvvələrin və ölkələrin maraqlarının toqquşmasına baxmayaraq, Azərbaycan müstəqil xarici siyasət kursunu saxlamağa müvəffəq olmuşdur. Bu isə Azərbaycana Aİ ölkələri ilə münasibətləri ölkənin milli maraqları əsasında qurmağa imkan yaradır.

Eyni zamanda, nəqliyyat sahəsində fəal dialoq və əməkdaşlıq Aİ ilə Azərbaycanın iqtisadi əlaqələrində mühüm yer tutur. Azərbaycanın əlverişli coğrafi mövqeyi, strateji nəqliyyat yollarının qovşağında yerləşməsi bu sahədə sıx əməkdaşlıq üçün geniş imkanlar yaradır. Hamıya məlumdur ki, Azərbaycan son illər ərzində Bakı Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu kimi mühüm infrastruktur layihələrinə böyük sərmayə qoymuşdur. Buna görə də, təsadüfi deyil ki, ən əhəmiyyətli avtomobil və dəmir yolları, dəniz və hava limanları Trans-Avropa nəqliyyat şəbəkəsinin (TEN-T) tikintisinin qabaqcıl indikativ planına daxil edilmişdir. Qeyd etmək yerinə düşər ki, TEN-T-nin qəbul edilməsi qərar, Avropa Parlamenti tərəfindən 1996-cı ildə verilmişdir və Aİ-də avtomobil və dəmir yollarının, hava limanlarının və su infrastrukturunun planlı şəbəkəsinin təşkilini nəzərdə tutur. O, eyni zamanda, Trans-Avropa şəbəkələrinin daha geniş sisteminin bir hissəsidir. Bununla yanaşı, Aİ Bakı limanına texniki dəstək də göstərir.

Azərbaycan Aİ-nin həm də strateji enerji tərəfdaşıdır. Bu strateji əməkdaşlığın yaranmasında və inkişafında Böyük Britaniyanın BP şirkəti mühüm rol oynayır. Fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonla görüşündə Prezident İlham Əliyev BP-nin Azərbaycanın strateji tərəfdaşı olduğunu vurğulamaqla yanaşı, həm də xatırlatmışdır ki, Cənub Qaz Dəhlizini tamamlamağa çox şadıq və Azərbaycanda qaz hasilatı ilə bağlı yeni hadisələri və keçən ilin dekabrında tamamlanmış infrastrukturu nəzərə alaraq, qarşımızda indi yeni imkanlar var. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Böyük Britaniya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanımışdır. Diplomatik münasibətlər isə 11 mart 1992-ci ildə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici işlər və birlik işləri üzrə dövlət naziri Duqlas Hoqq, bu ölkənin Rusiyadakı səfiri Rodrik Breytveyt və digər rəsmilərdən ibarət Böyük Britaniya nümayəndə heyətinin Azərbaycana ilk səfəri zamanı müvafiq sazişin imzalanması ilə yaradılmışdır. Böyük Britaniyanın ölkəmizdəki səfirliyi 1992-ci ilin sentyabrında ticarət nümayəndəliyi kimi fəaliyyətə başlamışdır. 1994-cü ilin yanvar ayında isə İngiltərədə Azərbaycan səfirliyi açılmışdır.

Ötən əsrin 90-cı illərində təməli uğurla atılmış ikitərəfli münasibətləri yeni yüzilliyin əvvəllərində müxtəlif parametrlər üzrə müvəffəqiyyətlə inkişaf etmişdir. İki ölkə arasında imzalanmış razılaşmalar və bağlanmış müqavilələr bu münasibətlərin daha da dərinləşməsinə möhkəm zəmin yaratmışdır. Təsadüfi deyil ki, Avropanın və dünyanın aparıcı dövlətlərindən olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə iqtisadi münasibətlərin Azərbaycanın xarici iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Morton ilə görüşündə tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələləri üzrə, o cümlədən strateji dialoq məsələlərini özündə ehtiva edən siyasi məsləhətləşmələrin bir çox aspektlərinə dair ətraflı fikir mübadiləsi aparmışlar. Qarşılıqlı səfərlərin münasibətlərin inkişafına töhfə verməsi, müqavilə-hüquq bazasının möhkəmləndirilməsi, enerji sahəsində əməkdaşlıq və digər məsələlər də müzakirə olunmuşdur.

Ümumiyyətlə, Azərbaycan – Böyük Britaniya münasibətlərinin müasir tarixinin ötən əsrin 90-cı illərinin əvvəllərinə təsadüf etməsinə baxmayaraq, qısa müddət ərzində iki ölkə arasında əlaqələrin inkişafında mühüm tarixi nailiyyətlər əldə edilmişdir. Ötən müddət ərzində münasibətlərimizin yüksələn xətlə inkişaf etməsi siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil və idman sahələrində əməkdaşlıqda öz müsbət əksini tapmışdır. Hazırda Azərbaycanda 600 Britaniya sərmayəli şirkət fəaliyyət göstərir. Xanım Vendi Mortonla görüşündə Prezident İlham Əliyev bunu iki ölkə arasında iqtisadi tərəfdaşlığın şaxələndirilməsinin yaxşı göstəricisi olduğunu diqqətə çatdırmışdır. Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran ölkədir. Belə ki, indiyədək Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən 30 milyard ABŞ dolları məbləğində sərmayə yatırılmışdır. Ölkə başçısı həmin görüşdə bildirmişdir ki, bu qədər vəsait Azərbaycana iqtisadiyyatı şaxələndirmək üçün neft-qaz satışından əldə olunmuş gəlirlərdən müvafiq şəkildə istifadə etmək imkanını vermişdir. Prezident İlham Əliyev əmin olduğunu bildirmişdir ki, qarşıdakı illərdə tərəflərin diqqətlərini cəmləşdirəcəkləri əsas sahə Azərbaycanın qeyri-enerji sektorunun inkişafı olacaq.

Əlbəttə, qeyri-neft sektorunun artmasının ölkə iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyəti vardır. Belə ki, qeyri-neft sektoru ölkə iqtisadiyyatının rəqabət qabiliyyətininin artmasında, daxili tələbatların ödənilməsində idxal məhsullarından asılılığının azaldılmasında və nəticədə milli məhsullara üstünlüyün çoxalmasında, o cümlədən, dövlət büdcəsinin gəlirlərinin mühüm mənbələrindən biri kimi çıxış etməsində, habelə işsizliyin qarşısını alınmasında və beləliklə məşğul əhalinin çox hissəsinin qeyri-neft sektorunda çalışmasında mühüm rol oynayır. Buna görə də, Azərbayanda qeyri-neft sektorunun inkişafına mühüm əhəmiyyət verilir. Bir sıra sənaye parklarının salınması məhz bundan xəbər verir. Bu da bir faktdır ki, Azərbaycanda qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənmiş, yeni istehsal sahələri yaradılmış, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlmiş, ixrac qabiliyyəti artmışdır. Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ildə sərəncam imzalamışdır.

Britaniyanın dövlət naziri ilə görüşündə də ölkə başçısı xüsusilə vurğulamışdır ki, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma üçün böyük potensialımız var. “Biz artıq Britaniya şirkətləri ilə təmaslara başlamışıq. Onlardan biri işğaldan azad edilmiş ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunub və mən ümid edirəm ki, onların sayı daha çox olacaq, çünki orada çox işlər görülməlidir. Hər şey dağılıb. Bərpa olunan enerji sahəsində böyük potensial var”,-deyən dövlət başçısı həmçinin əlavə etmişdir ki, Britaniya şirkətlərinin bu məsələlərdə işləməyə maraq göstərdiklərini bilir. Çox yaxşı Günəş, külək, su potensialının olduğunu vurğulayan Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri “yaşıl zona” ərazisi elan etdiyini də diqqətə çatdırmışdır.

Bir sözlə, ölkələrimiz arasındakı münasibətlər müxtəlif sahələri əhatə edir. Bu əlaqələrin qurulması ulu öndər Heydər Əliyevin adı ilə əlaqəlidir. Bu gün bu əlaqələr Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycan Böyük Britaniyanın Qafqazda və Xəzər regionunda etibarlı tərəfdaşıdır. Eyni zamanda, Böyük Britaniya da Azərbaycanın Avropadakı ən etibarlı tərəfdaşlarından biridir. Təsadüfi deyil ki, BMT Təhlükəsizlik Şurasının 853-cü qətnaməsi məhz Böyük Britaniyanın təşəbbüsü ilə qəbul edilmişdi. O vaxt Böyük Britaniya BMT Təhlükəsizlik Şurasının sədri idi və erməni işğalçı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması tələbi məhz 853-cü qətnamədə aydın şəkildə ifadə olunmuşdu. Azərbaycanın beynəlxalq aləmdə ədalətli mövqeyinin tanınmasında rəsmi London hər zaman güclü dəstək nümayiş etdirmişdir. Bu baxımdan deyə bilərik ki, ölkəmiz və Böyük Britaniya həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində beynəlxalq təhlükəsizliyin təmin olunmasına mühüm töhfə verir. Sözsüz ki, Azərbaycan ilə “Köhnə dünya”nın mühüm hissəsi olan Böyük Britaniyanın iqtisadi, siyasi, sosial və digər sahələrdə münasibətlər digər Avropa ölkələri üçün nümunə olar.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***